

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 136 (23.548)

*20 avqust 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## R.R.Əliyevin Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rafael Rza oğlu Əliyev Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 avqust 2020-ci il*

## Muzey binası tikilir



Bu gün muxtar respublikamızın hər bir rayonunda hərtərəfli tikinti-quruculuq işləri aparılır. Tariximizi özündə yaşadan, qoruyan və gələcək nəsillərə çatdıran muzeylərimiz də bu qayğıdan kənarda qalmır. Belə ki, Şahbuz rayonunda Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikintisinə başlanılıb. İki mərtəbədən ibarət olacaq binada geniş sərgi salonu ilə yanaşı, fond, bələdçilər, direktor, qazanxana və elektrik otağı, texniki işçilər, bərpaçı rəssam otaqları, əlavə iş otaqları və foye nəzərdə tutulub.

Ümumilikdə, 591 kvadratmetr sahəni əhatə edəcək yeni muzey binasında ziyarətçilərə tariximizin təbliği üçün geniş şərait yaradılacaq.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə mövzu ilə bağlı məruzə edən rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, payız-qış mövsümündə idarə, müəssisə və təşkilatların daimi fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri abonentlərin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasıdır. Bu məsələnin həlli üçün elektrik şəbəkəsi tərəfindən zəruri tədbirlər, yüksək və alçaqgərginlikli elektrik xətlərində və transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılmalıdır. Yararsız olan avadanlıq və xətlərin vaxtında müəyyənləşdirilərək dəyişdirilməsi, qəzalı elektrik dirəklərinin yenilənməsi üçün müvafiq tədbirlər görülməlidir. Mövsümə hazırlıq üçün transformator və yarımstansiyalar texniki baxışdan keçirilməli, yaranan enerji itkisinin minimuma endirilməsi və qanunsuz istifadə hallarının qarşısının alınması üçün aidiyyəti orqanlarla birlikdə aparılan tədbirlər gücləndirilməli, smartkarttipli sayğacların quraşdırılması davam etdirilməlidir.

Diqqətə çatdırılıb ki, rayon Qaz İstismar İdarəsi tərəfindən yoxlamalar aparılmalı, müəyyənləşdirilən nasazlıqlar aradan qaldırılmalıdır.

Elektrik Şəbəkəsində və Qaz İstismar İdarəsində mövsümə hazırlığın vacib hissələrindən biri kimi lazımi avadanlıq ehtiyatı yaradılmalı, qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunması diqqətdə saxlanılmalıdır.

Vurğulanıb ki, İcra Hakimiyyətinin müvafiq şöbələri Əhalinin Sosial Müdafiə Mərkəzi və Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin əməkdaşları ilə birlikdə qazanxanaların fasiləsiz işinin təmin edilməsi üçün yerlərdə baxış keçirməli, mövsümi işçilərin təlimatlandırılması üçün müvafiq tədbirlər görməli, peşə məktəblərində bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasına ciddi nəzarət olunmalıdır.

Qeyd olunub ki, Yol Təmiri və Tikintisi İdarəsi payız-qış mövsümündə nəqliyyat vasitələrinin hərəkətinin fasiləsizliyini təmin etmək üçün texnikaların işlək vəziyyətdə saxlanmasını, maşın və mexanizmlər üçün ehtiyat hissələrin yaradılmasını, qum tədarükünü diqqətdə saxlamalı, yaranacaq hər hansı problemin həlli üçün indidən tədbirlər müəyyənləşdirməlidir.

Müşavirədə aidiyyəti qurumların rəhbərlərinin görülmüş və görüləcək işlər barədə məlumatları dinlənilib.

*



Ordubad Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə qışa hazırlığın vəziyyəti müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib və müvafiq tapşırıqlar verilib.

Qeyd olunub ki, rayon üzrə bu ilin payız-qış mövsümündə yeni tikililərlə birlikdə 121 müasirtipli istilik sistemi fəaliyyət göstərəcək. Onlardan 82-si qazanxanatipli, 39-u isə kombitipli istilik sistemləridir. O cümlədən Kommunal Müəssisələr Kombinatı tərəfindən 9 qazanxana vasitəsilə 15 binada 414 mənzil istiliklə təmin olunacaq. Təhsil sahəsi üzrə 31, idarə, müəssisə və təşkilatlarda 62, xidmət mərkəzlərində 19 müasir istilik sistemindən istifadə olunacaq.

Həmin istilik sistemlərinin, qızdırıcı qurğuların, qaz cihazlarının və elektrik avadanlıqlarının vəziyyəti rayon Qaz İstismar İdarəsi və Elektrik Şəbəkəsi ilə birgə yoxlanılaraq baş verən nasazlıqlar aradan qaldırılır.

Bildirilib ki, energetika sahəsində həyata keçirilən kompleks tədbirlər əhalinin elektrik enerjisinə olan tələbatının ödənilməsinə və onun itkisiz olaraq yerlərə çatdırılmasına əlverişli şərait yaradıb.

Rayonun bütün yaşayış məntəqələri təbii qazla fasiləsiz təmin olunur. Ötən müddətdə rayon ərazisindəki daşıyıcı və paylayıcı qaz xətlərində təmir-bərpa işləri aparılıb, korroziyaya uğrayan qaz boruları dəmir və polietilen borularla əvəz olunub.

Vurğulanıb ki, rayon Rabitə İdarəsi 35 ATS olmaqla, 8198 abonentə xidmət göstərir. 35 ATS-dən 7-si açıq havada, 28-i isə binalarda quraşdırılıb. Yuxarı Əndəmic və Nüsnüs kəndlərində aparılan tikinti işləri başa çatdıqdan sonra ATS-lər yeni binalara köçürüləcək. Rayon mərkəzinin Heydər Əliyev prospektində yol təmir-bərpa işləri ilə əlaqədar 1300 metr məsafədə yeni rabitə-kanalizasiya xətti çəkilib.

Mövsümlə əlaqədar akkumulyator batareyaları yenisi ilə əvəz edilib, xətt təsərrüfatında olan dayaqlara baxış keçirilib, yararsız dayaqlar yeni dəmir dayaqlarla əvəz olunub, quyularda təmir işləri aparılıb, sıradan çıxmış quyu qapaqları dəyişdirilib və çatışmazlıqlar aradan qaldırılıb. Dağlıq ərazilərdə yerləşən avtomobil yolları uçqunlardan təmizlənib və hamarlanıb. Yollardakı bütün su keçidləri təmizlənib, Sabirkənddə yerləşən 1 ədəd qəzalı vəziyyətdə olan körpü təmir edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı görüləcək işlərin müzakirəsi aparılıb.

*

*Kəngərli Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.*



İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov müşavirəni giriş sözü ilə açaraq bildirib ki, əhalinin etibarlı elektrik enerjisi ilə təmin olunması üçün rayon Elektrik Şəbəkəsi elektrik enerjisinin verilməsində fasiləsizliyi təmin etmək üçün mövcud infrastrukturun yenilənməsini davam etdirməlidir. Elektrik enerjisindən qanunsuz istifadə hallarına qarşı tədbirləri davam etdirməli, qəza-bərpa briqadalarının komplektləşdirilməsi işi yekunlaşdırılmalıdır. İstehlak olunmuş elektrik enerjisi haqlarının vaxtında yığılmasına nəzarət gücləndirilməlidir.

Vurğulanıb ki, bütün yaşayış məntəqələrində hazırlıq işləri görülməli, qazanxanaların təbii qazla yanaşı, mazut və dizel yanacağı ilə də işləyə bilməsi təmin edilməli, qənaət rejimində fəaliyyətinə nəzarət olunmalıdır. Eyni zamanda ictimai yaşayış binalarında mövsümə uyğun tədbirlər aparılmalı, kommunal xidmət texnikaları saz vəziyyətə gətirilməlidir.

İcra başçısı bildirib ki, mövsüm ərzində təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fasiləsiz fəaliyyəti təmin olunmalı, Təhsil Şöbəsi tədris prosesi başladığı dövrdən etibarən ümumtəhsil məktəblərində əsas diqqəti dərslərin davamlılığına, eləcə də mövcud vəziyyətə uyğun olaraq müəllim və şagirdlərin sağlamlığının qorunmasına yönəltməli, qazanxanalar işlək vəziyyətə gətirilməli, peşə kursu keçmiş və sertifikat almış ocaqçılar işə götürülməlidir. Rayon Mərkəzi Xəstəxanası tələbata uyğun dərman preparatları və tibbi avadanlıqlarla təminatı davam etdirməlidir. Mədəniyyət və idman müəssisələrinin davamlı fəaliyyəti diqqətdə saxlanmalı, Mədəniyyət Şöbəsi, Gənclər və İdman İdarəsi tərəfindən hazırlıq işləri görülməli, çatışmazlıqlar vaxtında aradan qaldırılmalıdır.

Bununla yanaşı, rayon Yol Təmir İstismar İdarəsi avtomobil yollarında tələb olunan təmir-tikinti işlərini aparmalı, qış aylarında yolların qardan və buzdan vaxtında təmizlənməsi məqsədilə mövcud texnikalar saz vəziyyətə gətirilməli və onlar üçün zəruri ehtiyat hissələri yaradılmalı, qum ehtiyatı tədarük etməlidir.

Diqqətə çatdırılıb ki, rayon İcra Hakimiyyəti 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı verilən tapşırıqların icrasını diqqətdə saxlamalı, mövsüm ərzində bu məsələ ilə bağlı daxil olan müraciətlər, eləcə də ərizə və şikayətlər dərhal araşdırılmalı və aidiyyəti üzrə məlumat verilməli, problemlər qısa müddətdə aradan qaldırılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

*

***Dövlət Baytarlıq Xidmətində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı iclas keçirilib. İclası xidmətin rəisi Vəli Novruzov açıb.***

Bildirilib ki, payız-qış mövsümü ilə əlaqədar mal-qaranın saxlanıldığı tövlələrdə, yataq yerlərində baytar-sanitariya işinin əsas göstəricilərindən hesab olunan dezinfeksiya, dezinseksiya tədbirlərinin vaxtında həyata keçirilməsi öncədən bütün növ xəstəliklərin yayılmasının qarşısını alır. Bunlarla yanaşı, tələbata uyğun yem bazasının toplanması, tədarük olunmuş yemin açıq havada saxlanılmaması, yağış və qar suyundan xarab olmasının qarşısının alınması üçün qapalı yerlərdə və ya polietilen vasitəsilə mühafizəsi, heyvanların yaxşı yemləndirilməsi üçün yemlərin əvvəlcədən doğranması sahibkarlara tövsiyə olunmalıdır.

Qeyd olunub ki, payız-qış aylarında ev quşlarının sağlamlığının qorunması məqsədilə peyvəndləmə tədbirləri aparılmaqla yanaşı, sahibkarlara quş damlarının vaxtlı-vaxtında təmizlənməsi, dezinfeksiya, dezinseksiya işlərinin həyata keçirilməsi, həmin yerlərin havalandırılması, temperaturunun və rütubətin nizamlanması, işıqlandırılmasının vacibliyi çatdırılmalı, bu istiqamətdə maarifləndirmə tədbirləri davam etdirilməlidir. Eyni zamanda arıçılıq sahəsi üzrə məhsuldarlığın artırılması, arı ailələrinin xəstə-



liklərdən qorunması və qışlamadan sağlam çıxmaları bilavasitə arı pətəklərinin payız-qış mövsümünə yaxşı hazırlanmasından asılıdır. Bu baxımdan sahibkarlara arıların kifayət qədər keyfiyyətli yem ehtiyatı ilə təmin olunması, qışlama dövrü açıq havada saxlanılan arı pətəklərinin külək tutmayan yerlərə qoyulması, qışlama binalarının təmir edilməsi, arı dərmanlarının parazitlərə və infeksiyalara qarşı işlədilmə qaydaları izah etdirilməlidir.

Diqqətə çatdırılıb ki, baş verə biləcəyi ehtimal olunan xəstəliklərin qarşısının alınması məqsədilə Zoobaytar Təchizatı İdarəsinin anbarlarında ehtiyat vaksin və biopreparatlar, o cümlədən litrformalin dezinfeksiya maddəsi və digər vasitələr təyinatı üzrə istifadə olunması məqsədilə saxlanılır. Əlavə olaraq yeni vaksin və biopreparatların gətirilməsi də nəzərdə tutulmuşdur.

İclas məruzə ətrafında çıxışlarla davam etdirilib.

**Xəbərlər şöbəsi**



*Ümummilli liderimiz Heydər Əliyev deyib:* ***"Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var. Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz..."*** *Bu gün hər bir şərurlu təsdiq edər ki, ulu öndərin bu arzusu reallığa çevrilib, dahi şəxsiyyətin müəyyənləşdirdiyi yenilənmə, quruculuq siyasəti uğurla həyata keçirilib – illərdir ki, Şərur müasir Azərbaycan rayonu timsalındadır. Bu həm də muxtar respublikada belə bir ifadənin aforizmə çevrilməsinin bariz təcəssümüdür: Yol düzgün seçiləndə... Və qədim diyarımızın hansı ünvanını – istər rayon mərkəzlərini, istərsə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrini gəzib-dolaşsaq, bu aforizmin bəhrələrinin saysız-hesabsız olduğunu görərik. Təbiidir ki, bu bölgədə də reallaşdırılan bütün layihələr bir neçə məqsədə söykənib: rayon sakinlərinin yaşayış səviyyəsini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq. Şərurlular da bu həqiqəti dərindən dərk edir, rayonun, muxtar respublikanın və nəticə etibarilə, ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar. Elə yaşadığımız ilin ilk altı ayı da tarixə öz izlərini yazdı.*

*İnkişaf edən bölgələrimiz*

# Quruculuq siyasətinin uğurla davam etdirildiyi ünvanlardan biri: ŞƏRUR

### *Bölgənin quruculuq xəritəsində düzgün seçilmiş yolun bəhrələri*

Faktlara müraciət edək. Bəhs olunan dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 38 milyon 912 min 700 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 36 milyon 802 min 100 manat təşkil edib.

Bu dövrdə Şərur şəhərində 35/10 kilovoltluq "Subartezian" yarımstansiyasının tikintisi, 3 yaşayış binasının əsaslı təmiri, Mərasim evinin yenidən qurulması, Məmmədsabirdə kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının tikintisi, Muğancıq-Mehrab kəndində məktəb binasının yenidən qurulması, kənd və xidmət mərkəzlərinin, feldşer-mama məntəqəsinin tikintisi, eyni zamanda Məmmədsabir, Muğancıq-Mehrab və Qarxun yaşayış məntəqələrini birləşdirən avtomobil yoluna asfalt örtüyün salınması rayon sakinləri tərəfindən sevinc hissləri ilə qarşılanıb.

Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər görülüb, "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində inşa olunmuş iyul ayının 24-də Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin və Cəlilkənddə içməli su xəttinin istifadəyə verilməsi rayon sakinlərinə növbəti qayğı kimi dəyərləndirilib. Bu dövrdə "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binasının, Təqaüdçülər Klubunun, Musiqili fəvvarənin istifadəyə verilməsi şərurlulara daha bir sevinc hissi yaşadıb.

Hazırda rayon mərkəzində zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının, Mədəniyyət Sarayının, Avtovağzal binasının, Saat və Bayraq meydanlarının, Şərur Sənaye Məhəlləsinin tikintisi, 1 yaşayış binasının əsaslı təmiri, Qaraburc kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, feldşer-mama məntəqəsinin, Şəhriyar kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, musiqi məktəbinin tikintisi və yenidən qurulması davam etdirilir. Quruculuq tədbirlərindən hərbçilərə də pay düşüb. Belə ki, Qarxun kəndində "N" hərbi hissə üçün infrastruktur obyektlərinin və Təzəkənddə Sərhəd Zastavasının tikintisində sürətli iş ahəngi müşahidə olunur.



Rayonun yol təsərrüfatı da quruculuq tədbirlərindən kənarda qalmayıb. Şərur şəhəri ilə Naxçıvan-Sədərək magistralını birləşdirən avtomobil yolunun çəkilişi, Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kəndlərini birləşdirən avtomobil yoluna asfalt örtüyün salınması, Püsyan-Təzəkənd yolunun yenidən qurulması davam etdirilir.

### *İlin ilk 6 ayı aqrar sahədə də uğurlu nəticələrlə zəngindir*

Cari ilin məhsulu üçün rayonda 17 min 115 hektar torpaq sahəsində əkin aparılıb. Əkin sahələrində taxılçılıq üstün istiqamət kimi saxlanılıb, 4 min 865 hektar sahədə taxıl əkilib ki, bunun da 4 min 315 hektarı buğda, 550 hektarı isə arpa olub. Artıq taxıl tədarükü başa çatıb. Rayon muxtar respublika üzrə liderliyi ələ alaraq, həmin sahələrdən 19 min 185 ton məhsul tədarükünə nail olub. Bu isə orta məhsuldarlığın 39,4 sentner olması deməkdir.

Rayon adamlarının kartofçuluqda zəngin təcrübəsi var. Hər il bölgədə yaradılmış şəraitdən lazımınca istifadə edən torpaq adamları bu il də kartof əkinlərinə üstünlük veriblər – 1350 hektar sahədə əkin aparıblar. Artıq məhsul tədarükünə başlanılıb.

Tarixən Şərurda tütünçülük geniş həcmdə inkişaf etdirilib. İqtisadi cəhətdən xeyli səmərəli olan bu sahəyə qayıdışın ifadəsidir ki, rayonda 2,7 hektar sahədə tütün əkini aparılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası üçün bölgədə əlverişli şərait mövcuddur. Hazırda rayonda 586 arı təsərrüfatında 12 min 935 arı ailəsi vardır.

Muxtar respublikamızda illərdir ki, davam etdirilən ekoloji siyasət qədim diyarımızın təbii zənginliklərinin qorunmasında, xüsusilə yaşıllıq sahələrinin xeyli artırılmasında əhəmiyyətli rol oynayıb. Aparılan genişmiqyaslı yaşıllaşdırma tədbirləri sayəsində rayonun siması tamamilə dəyişib. Bəhs olunan dövrdə 8,5 hektar sahədə yeni meyvə bağları salınıb, 1 hektar meyvə bağında isə bərpa işləri aparılıb. Yaşıllaşdırma tədbirlərində 49 min 890 ədəd müxtəlif sortda ağac tingləri və gül kolları əkilib. Sahibkarlar tərəfindən isə xüsusi mülkiyyətdə olan və həyətyanı torpaq sahələrində 34,2 hektar sahədə müxtəlif növlər üzrə meyvə bağları salınıb.





Əhalinin ekoloji cəhətdən sağlam meyvə-tərəvəzlərlə təmin edilməsində, xüsusilə kənd təsərrüfatı məhsullarının saxlanılmasında soyuducu anbarların və istixanaların mühüm rolu vardır. Bunun üçün rayonun Arpaçay, Kosacan, Məmmədsabir, Siyaqut və Ələkli kəndlərində ümumi olaraq 15 min 600 kvadratmetrlik müasirtipli istixana komplekslərini, istehsal olunan meyvə və tərəvəz məhsullarının tələbatdan artıq hissəsinin saxlanılması üçün rayonun müxtəlif kəndlərində ümumi tutumu 6 min 430 ton olan 19 soyuducu anbar fəaliyyət göstərir.

Aqrar sahənin inkişafında texnika mühüm rola malikdir. Bunu nəzərə alaraq hər il rayonda yeni texnikalarla təchizat diqqətdə saxlanılır. Cari ilin ötən dövrü ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən hüquqi və fiziki şəxslərə 1 milyon 831 min 100 manat dəyərində 55 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar lizinq yolu ilə güzəştli şərtlərlə satılıb.

Ümumilikdə, 2020-ci ilin ötən dövründə rayonda 54 milyon 265 min 500 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Son illər Şərurda sahibkarlığın inkişafına da ciddi önəm verilir. Birinci yarımildə 2 hüquqi və 272 fiziki şəxsin qeydiyyata alınması bunun ifadəsidir. Bir məsələni də qeyd edək ki, rayonda yeni istehsal sahələrinin fəaliyyətə başlaması əhalinin məşğulluğunun təmin edilməsinə öz təsirini göstərir. Birinci yarımildə rayonda 37 yeni iş yerinin açılması məhz bu hesaba mümkün olub.

### *Bütün sahələrdə qarşıya qoyulan vəzifələr uğurla icra edilir*

Rayonda digər sahələrdə olduğu kimi, bəhs olunan dövrdə təhsil, səhiyyə və mədəniyyət sahəsində də mühüm işlər görülüb, reallaşdırılan tədbirlər təhsilin səmərə və keyfiyyətinin yaxşılaşdırılmasına zəmin yaradıb. 2019-2020-ci tədris ilində rayonun tam orta məktəblərini 524 məzun bitirib, onlardan 471 nəfəri ali məktəblərə sənəd verib. Bu, ümumi məzunların 89,9 faizi deməkdir.



Rayonda əhalinin sağlamlığının qorunması diqqət mərkəzində saxlanılıb, bu istiqamətdə xeyli iş görülüb. Ötən dövrdə Şərur Rayon Mərkəzi Xəstəxanasına 1 stasionar süni tənəffüs aparatı, 2 infuziya pompası, 2 kardiomonitor verilib.

Məlumat üçün bildirək ki, ötən ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə rayon ərazisində icbari tibbi sığortanın tətbiqinə başlanılıb və Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin baza zərfində 1525 tibbi xidmət vardır ki, həmin xidmətlərin 718-i Şərur Rayon Mərkəzi Xəstəxanasında həyata keçirilir. Rayon Mərkəzi və Uşaq xəstəxanalarında 2020-ci ilin 6 ayı ərzində, ümumilikdə, 38 min 36 xəstəyə icbari tibbi sığorta üzrə tibbi xidmət göstərilib, 3 min 488 pasiyentə isə Naxçıvan Muxtar Respublikasının müxtəlif xəstəxanalarına müayinə, müalicə, əməliyyat üçün göndəriş verilib.

Müvafiq dövr ərzində Mədəniyyət Şöbəsi də qarşıya qoyulan vəzifələrin həllində fəallıq göstərib, öz işini pandemiya rejiminin tələbləri istiqamətində qurub. Bu dövrdə rayonun uşaq musiqi məktəbləri də öz fəaliyyətlərini onlayn şəkildə davam etdiriblər. Ümumilikdə, şöbənin tabeliyində olan 6 uşaq musiqi məktəbi tərəfindən 976 onlayn dərs keçirilib.

Əhalinin yaşayış səviyyəsinin yüksəlməsi ilbəil demoqrafik vəziyyətə də öz müsbət təsirini göstərib, rayon əhalisinin sayı ötən dövrlə müqayisədə 844 nəfər artaraq 117 min 722 nəfər olub. (1 iyun 2020-ci il tarixə).

### *Xidmət sahələrinin fəaliyyəti razılıq doğurur*

Naxçıvan-Şərur magistralında və rayondaxili yollarda həyata keçirilən genişhəcmli quruculuq tədbirləri öz bəhrələrini verməkdədir. Bunun ifadəsidir ki, bəhs olunan dövrdə rayonda 964,4 ton yük, 6062,5 nəfər sərnişin daşınıb.

Digər xidmət sahələrində də qazanılan uğurlar az deyil. Bu müddət ərzində informasiya və rabitə xidmətlərinin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz artaraq 3 milyon 805 min 100 manat olub.

Elektrik təsərrüfatı da qarşıya qoyulan vəzifələrin icrasına məsuliyyətlə yanaşıb, rayonun transformator təmiri sexində 49 transformator təmir olunub. Şərur şəhərində yüksəkgərginlikli elektrik xətti üçün tunelin tikintisi və smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam edir. Maye qazdoldurma stansiyasının tikintisi başa çatdırılıb. Hazırda yanacaqdoldurma stansiyası yenidən qurulur. Bu dövrdə rayonda 19 002 əhali abonenti mavi yanacaqla təmin edilib.

### *Şərurlular 2020-ci ili daha yüksək nailiyyətlərlə başa vuracaqlarına əmindirlər*

Şərurun növbəti yarımilə də yüksək əhval-ruhiyyə ilə qədəm qoymasını həmsöhbət olduğumuz insanların çöhrələrindən, söhbətlərindən, həyatın öz axarı ilə davam etməsindən görmək mümkün idi. Tikinti-quruculuq işləri davam etdirilir, emal və sənaye müəssisələri yeni uğurlar qazanmaq əzmi ilə çalışır, insanlar rayonun daha da çiçəklənməsi, iqtisadi cəhətdən güclənməsi üçün səy və bacarıqlarını əsirgəmirlər. Qazanılanları son hədd hesab etməyən rayon sakinləri 2020-ci ilin ikinci yarısında da yüksək göstəricilərə nail olacaqlarına inanırlar. Çünki arxalarında güclü dövlətin durduğunu görürlər. Belə dövlətin vətəndaşları olmaqla qürur duyurlar. Bilirlər ki, nail olunan hər bir uğurun təməlində insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı dayanıb.

**Muxtar MƏMMƏDOV**
**Elman MƏMMƏDOV**

# Vətən – əbədi sevgimizin dəyişməz ünvanı



**VƏTƏN!** *Bütün qəlbimizlə ifadə etdiyimiz bu söz üzərində müstəqil yaşadığımız, zəngin mədəniyyətimizin, qüdrətli dövlətimizin və ulu tariximizin ortaq elementi olan torpaq parçasına verdiyimiz addır. O torpaq ki bizim milli şüurumuzda namusumuzun bir parçasıdır...*

Bu torpaq sıradan bir torpaq deyil. Çünki dünyanın hər hansı bir yerindəki torpaq bizim Vətənimiz ola bilməz, Vətənimizin bizdə yaratdığı müqəddəs hissləri oyada bilməz. Vətən yolunda savaşıb, uğrunda yüzlərlə şəhid vermişik. Lakin heç zaman başqasının torpaqlarına göz dikməmişik. Məncə, elə əsl vətənpərvərlik budur. Öz Vətənini sevən başqasının torpaqlarına, ərazi bütövlüyünə də hörmətlə yanaşar, namusuna sataşmaz.

Bizim Vətən sevgimiz tarixboyu qəlbimizdə yaşayır və yaşayacaq. Qəlbimizdən, varlığımızdan, mənliyimizdən qopub gələn vətənpərvərlik duyğusundandır ki, əsrlər boyunca Vətən uğrunda yazmadığımız şeir, qoşmadığımız nəğmə qalmayıb. Xalq şairi Bəxtiyar Vahabzadənin təbirincə Vətən sevgisi budur:

*Ey Vətən oğlu, düşün, bil ki, sənindir*
*bu Vətən,*
*Sabahın, həm bu günün, həm dünənindir*
*bu Vətən.*
*Sənin öz dövlətin, öz millətin, öz cəddin var*
*Vətən, uğrunda ölənlər ölümündən doğular.*
*Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik*
*Biz Vətən naminə ölsək, dirilərdən diriyik.*

Vətən təkdir, birdir, vazkeçilməzdir, heç bir varlıqla müqayisəedilməz dərəcədə müqəddəsdir. Maldan-mülkdən, paradan-puldan, candan – hər şeydən keçmək olar. Amma Vətəndən keçilməz. Çünki Vətəndə həyatımız, sevdiklərimiz, millətimiz, ulu babalarımız, tariximiz, keçmişimiz, gələcəyimiz, namusumuz, qürurumuz, heysiyyətimiz, rifahımız, xoşbəxtliyimiz, hüzurumuz, xəyallarımız, qısaca, yaşamaq, insana, millətə dair nə varsa, hamısı vardır. Bütün bunların bir anlamı, mənası olması üçün öncə onları sərbəst şəkildə yaşaya biləcəyimiz bir Vətən gərəklidir. Vətənpərvərlik sevgi kəlməsinin məna sərhədlərini elə aşır ki, o sevginin daxilini ruhla, qətiyyətlə, inam və inancla, uğrunda öləcək hisslərlə bəsləməsən, sevginin Vətənə heç bir faydası olmaz.

Vətənpərvərlik, əslində, insanlığa, bəşəriyyətə olan sevgidir. Vətənpərvərlik namuslu, vicdanlı düşünmək, yaşadığın cəmiyyət üçün faydalı olmaqdır. Bu gün vətənpərvərlik təkcə alınə silah alıb səngərlərə atılmaq deyil. Vətənpərvərlik hər bir sahədə çalışan, fəaliyyət göstərən insanın ruhuna hakim kəsilir. Ərzaq təhlükəsizliyinin təmin olunması yolunda tər axıdan kəndli, dağların-dərələrin hər qarışına bələd olan çoban, sağlamlığımıza vicdanlı şəkildə cavabdeh olan həkim, gələcəyimizi etibar etdiyimiz müəllim, hər bir sahədə dövlətçilik ənənələrimizə sadiq qalan məmur, bir sözlə, kimliyindən və peşəsindən asılı olmayaraq, işini vicdanla yerinə yetirən hər kəs əsl vətənpərvərdir. Bu gün təkcə Vətən uğrunda döyüşmək yox, Vətən uğrunda döyüşənlərə dəstək olmaq gərəkdir.

Biz bugünkü firavan həyatı, rahat yaşayışı asan qazanmamışıq. Buna görə də onu rahatlıqla əldə etmək istəyənlərə veriləcək cavabımız birdir. Türkün Vətən sevgisi və düşmənə nifrət duyğularından yoğurulan hisslərlə silahlanmış müzəffər Azərbaycan Ordusu Vətənimin bir qarış torpağına əl uzatmaq istəyənin əlini kəsər, dilini qoparar. Aprel döyüşləri, Günnüt zəfəri, bu ilin iyul ayında düşmən təxribatına verdiyimiz tutarlı cavab kimi...

Əlbəttə, Azərbaycanın dünya miqyasında davamlı olaraq artan gücü, beynəlxalq nüfuzu, hərbi qüdrəti, diplomatiyamızın uğurları düşmənlərimizi çox narahat edir, qorxuya salır. Son günlərdə Tovuz istiqamətindəki sərhəd ərazilərində düşmən hücumunun qarşısını qətiyyətlə alan qəhrəman əsgər və zabitlərimiz bir daha sübut etdi ki, müasir silah və texnikalarla təchiz olunmuş ordumuz mətin və ürəyində Vətən sevgisi olan qəhrəmanları ilə daim zəfərə doğru irəliləyir. Belə bir həssas məqamda xalqımız bir daha milli birlik nümayiş etdirərək müzəffər ordumuza, qəhrəman əsgərlərimizə dəstək nümayiş etdirdi. Yüz minlərlə həmyerlimiz səfərbərlik çağırışı ilə ordu sıralarına könüllü yazılmaq üçün müraciət etdi. Bütün bunlar düşmən qüvvələrin narahatlığını daha da artırdı. Çünki bu həm xalqımızın şəhidlərinə olan sonsuz məhəbbət və ehtiramı, həm də xalq-dövlət birliyinin, xalq-ordu həmrəyliyinin ən parlaq ifadəsidir. Bu milli birlik dərin tarixi köklərə, adət-ənənələrə, mədəniyyətə malik olan, "Tək əldən səs çıxmaz", "Güc birlikdədir" – deyən, Dədəmiz Qorqudun qopuzunun sədaları altında düşmən üstünə birlikdə gedən Oğuz igidlərini yetirən xalqımızın yenilməzliyinin təzahürüdür!..

Bu gün yüksək vətənpərvərlik ruhunda yetişən gənclərimiz ordumuzun sıralarında ləyaqətlə xidmət edərək ölkəmizin hərbi qüdrətinin gücləndirilməsində bacarıq və səylərini əsirgəmirlər. Qüdrətli ordumuzun mətin övladları sırasında şəhidlik zirvəsinə yüksələn Vətən oğullarının qəhrəmanlıqları gələcək nəsillər üçün əsl vətəndaşlıq nümunəsidir. Babəklər, Koroğlular, Cəmşidlər yetirən bu torpaq bu gün də böyük qəhrəmanlıq şücaəti göstərən, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən, intiqam, Vətən, torpaq təəssübkeşliyi ruhunda döyüşən Qabillər, Mübarizlər, Polad Həşimovlar yetirir. Bu gün ön cəbhədə vuruşaraq şəhidlik zirvəsini fəth edən ölməz Vətən övladları sırasında ordumuzun generallarının da olması bir daha sübut edir ki, Vətən sevgisi peşə, vəzifə, rütbə tanımır. Qəlbində Vətən sevgisi, dilində namus hayqıran hər bir azərbaycanlı cəbhəyə atılır, düşmənin qarşısında sinəsini sipər edir.

**Gülcamal TAHİROVA**

## Maliyyə Tədris Mərkəzi tərəfindən təlimlər keçirilir



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində xəzinədarlıq əməliyyatları üzrə sənədlərin elektron tərtibi sistemi ilə bağlı təlimlərə start verilib.*

Bununla bağlı keçirilən tədbirdə Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova çıxış edərək iştirakçılara təlimin məqsədi və əhəmiyyəti barədə məlumat verib. Bildirilib ki, təlimin keçirilməsində məqsəd ödəniş tapşırıqları sənədləri bölməsinin iş prinsipinin izahı və sistemdə olan yeniliklərin iştirakçılara öyrədilməsindən ibarətdir.

Maliyyə Nazirliyinin əməkdaşı Vüsal Məmmədovun təqdimatında iştirakçılara mövzu ilə bağlı ətraflı məlumat verilib. Qeyd edilib ki, xəzinədarlıq əməliyyatları zamanı sənədlərin elektron tərtibi sistemində yeni qurulmuş modul vasitəsilə ödəniş tapşırıqları sənədləri sistem üzərindən işlənilib xəzinədarlığa təqdim ediləcəkdir.

Təlimdə nazirliyin Müasir texnologiyalar və avtomatlaşdırılmış idarəetmə sistemləri şöbəsinin müdiri Vüsal Əsədov və Xəzinə şöbəsinin müdiri Nurlan Hacıyev iştirakçılara sistemlə bağlı tövsiyələrini veriblər.

Sonda sistemlə əlaqədar geniş fikir mübadiləsi aparılaraq təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, 2 saat ərzində davam edən təlimdə büdcədən maliyyələşən müxtəlif təşkilatlardan 12 mütəxəssis iştirak edib. Növbəti günlərdə təlimin digər qruplar üçün davam etdirilməsi nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Ordubad şəhər internat tam orta məktəbi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almasında mühüm rol oynayır

***Təhsilin inkişafı ilə yanaşı, muxtar respublikada yaşayan bütün kateqoriyadan olan uşaqlara, o cümlədən valideyn himayəsindən məhrum və ya xüsusi qayğıya ehtiyacı olan uşaqlara hər zaman dövlət qayğısı göstərilmiş, onların təhsili, təlim-tərbiyəsi, mənəvi inkişafı daim diqqət mərkəzində olmuş, istedadlarının üzə çıxarılması, bilik və bacarıqlarının möhkəmləndirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilmişdir. Bu qayğının bariz nümunəsi kimi Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbini qeyd edə bilərik.***

Bu məktəb bu gün öz fəaliyyəti ilə əsl nümunəvi təhsil və ya belə desək, həm də isti ailə ocağı kimi xüsusi qayğıya ehtiyacı olan uşaqlara qucaq açıb. Həmişə elm xadimləri, ziyalıları ilə fərqlənən Ordubad elmi mühiti məktəbin fəaliyyətinin ilk günündən rayonun bilikli müəllimlərindən təşkil olunmuş bir kollektiv yarada bilib. İnternat məktəbinin fəaliyyəti hər zaman diqqət mərkəzində olmuş, burada formalaşan hər bir şagird əsl vətənpərvər gənc kimi məktəbdən ayrılmışdır.

Məktəbin fəaliyyətində sayılıb-seçilən müəllimlərin rolu da böyük olmuş, onların sayəsində məhz bu gün də öz tarixi ənənəsini yaşadan, özünəməxsus spesifik xüsusiyyətləri ilə seçilən təhsil ocağı formalaşmışdır. Muxtar respublikamızın müxtəlif rayonlarından təhsil almaq üçün buraya axın başlamış, təhsil ocağı valideyn himayəsindən məhrum və aztəminatlı ailələrin uşaqlarının oxumaq imkanı əldə etmələri üçün ideal ünvana çevrilmişdir.

1964-cü ildə internat məktəbi üçün yeni 420 şagird yerlik bina, 300 yerlik yataqxana korpusu inşa edilmiş və həmin ildən məktəb 340 şagird kontingenti ilə fəaliyyətini davam etdirmişdir.

Heç şübhəsiz ki, təhsil sahəsində qazanılan bütün uğurların arxasında hərtərəfli dövlət qayğısı dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Ordubad şəhər internat tam orta məktəbinin fəaliyyəti üçün zəruri tədris şəraiti yaradılmışdır.



Yenidən əsaslı təmir olunaraq müasir infrastrukturla zənginləşdirilmiş 469 şagird yerlik məktəbin binası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2006-cı il dekabrın 21-də istifadəyə verilmişdir. İki mərtəbədən ibarət tədris korpusu, 3 mərtəbədən ibarət 134 yerlik yataqxana və zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət yeməkxana binasının fəaliyyət göstərdiyi məktəb kompleksində 18 sinif, 2 yardımçı otaq, fizika, kimya, biologiya olmaqla, 3 laboratoriya, 2 elektron lövhəli sinif, internetə çıxışı olan 1 kompüter otağı, 2 müəllimlər və 1 elektron lövhəli şahmat otaqları, hərbi kabinə, bufet və idman zalı yerləşmiş, həmin otaqlar lazım olan müasir avadanlıq və infrastrukturla təmin olunmuşdur.

Məktəbdə tədrisin keyfiyyətinin artırılması məqsədilə zəngin kitabxananın olması burada təhsil alan şagirdlərin biliklərinin, intellektual səviyyələrinin yüksəldilməsinə geniş imkanlar açır.

İnternat məktəbində şagirdlər isti yemək, çay və yataqla təmin olunurlar. Məktəbin tərbiyəçi müəllimlərinin nəzarəti ilə şagirdlərə gündəlik məşğələlər təşkil edilir və növbəti günün dərslərinin hazırlanmasında onlara köməklik göstərilir. Həmçinin burada şagirdlərin muzeylərə ekskursiyası, şeir, rəsm, inşa yazı və digər müsabiqələr də təşkil edilir. Məktəbdə şagirdlər asudə vaxtlarını səmərəli keçirmək üçün şahmatla, voleybol, basketbol, stolüstü tennis kimi digər idman növləri ilə də məşğul olurlar.

Bu gün təhsil ocağında 59 müəllim-tərbiyəçi və 62 texniki heyət şagirdlərin qayğısını çəkir. Məktəbdə yerləşdirilən camaşırxana, hamam, dərzi, bərbər, ayaqqabı təmiri otaqları, bufet, üstüaçıq yaşıl meydança və idman zalı gənc nəslin sağlam böyüməsində mühüm rol oynayır.

Hazırda 491 şagirdin təhsil aldığı internat təhsil sahəsindəki göstəricilərinə görə 2007-2008-ci tədris ilində respublikada "İlin ən yaxşı məktəbi" müsabiqəsinin qaliblərindən biri olmuşdur. Fəaliyyətinə görə məktəbin müəllimlərindən 1-i "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 3-ü isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 1-i isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Yaradılan yüksək tədris şəraitinin nəticəsidir ki, Ordubad şəhər internat tam orta məktəbində hər il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan şagirdlərin sayı artır. Son bir neçə ilə nəzər salsaq, bunu aydın görmək olar. Belə ki, 2016-2017-ci tədris ilində məktəbi 17 məzun bitirmiş, onlardan 3-ü fərqlənmə attestatı almışdır. Məzunların14-ü ali, 1-i isə orta ixtisas təhsili müəssisəsinə qəbul olmuş, onlardan 4-ü 500-700 arası bal toplamışdır. 2017-2018-ci tədris ili üçün nəticələr daha da ürəkaçan olmuşdur. Belə ki, həmin il məktəbi 15 məzun bitirmiş, onlardan 5-i fərqlənmə attestatına layiq görülmüşdür. Məzunların hamısı Azərbaycanın müxtəlif ali təhsil müəssisələrinə qəbul olmuş, 5-i 500-700 arası bal toplamışdır. 2018-2019-cu tədris ilində isə məktəbi 15 şagird bitirmiş, 14-ü yüksək nəticə göstərərək Azərbaycanın müxtəlif ali təhsil müəssisələrinə qəbul olmuş, 4-ü 500-700 intervalında bal toplamışdır. Həmin məzunlardan 1-i isə Prezident təqaüdünə layiq görülmüş, 1-i qızıl medal, 1-i fərqlənmə attestatı ilə təhsilini başa vurmuşdur. Son 8 ildə ali məktəblərə tələbə qəbulunda Ordubad internat tam orta məktəbi həmişə ön sıralarda olmuş, məktəbi bitirən şagirdlərin 85,6 faizi tələbə adına layiq görülmüşdür.

*Məktəbin fəaliyyətində əsas məqsəd burada təhsil alan hər bir şagirdin savadlı, vətənpərvər, dünyagörüşlü böyüməsidir. Ümid edirik ki, məktəbin builki qəbul göstəricisi ötən illərdən geri qalmayacaq, bu təhsil ocağı yenə də öncül məktəblər sırasındakı yerini qoruyub saxlayacaqdır.*

**Ülviyyə HACIYEVA**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Onlayn konsertlər davam etdirilir



*Dünən Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyasının "Muğam studiyası"nın onlayn konserti olub.*

Qeyd edək ki, filarmoniyada "Muğam studiyası" uzun illərdir ki, fəaliyyət göstərir. Studiyanın tərkibində tanınmış xanəndələrlə yanaşı, gənc muğam ifaçıları da bu sənəti yaşadır və təbliğ edirlər.

Onlayn konsertdə İlqar Hüseynovun rəhbərlik etdiyi "Muğam studiyası"nın solistlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfiqar Mahmudov "Çahargah" təsnifini, Ruhiyyə Hüseynova Əlibaba Məmmədovun "Gözlərin" mahnısını, "Yana-yana kül oldum" xalq mahnısını, müğənnilərdən Məhərrəm Quliyev "Dilkəş", Bəhruz Quliyev "Bayatı-şiraz" təsnifini, Nərmin Hüseynova Qulu Əsgərovun "İlk eşqim" mahnısını ifa ediblər.

Zülfiqar Mahmudovun Nərmin Hüseynova ilə birlikdə ifa etdiyi "Qarabağ şikəstəsi" ritmik muğamı ilə başa çatan onlayn konsert 1 saata yaxın davam edib. Bu onlayn konsert proqramı da Naxçıvan Dövlət Televiziyasında və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet resurslarında canlı olaraq yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

***Sirli-sehrli dünyanın ecazkar gözəlliklərini səsi, ahəngi ilə dilə gətirən telli, simli, sözlü tar! Tellərindən qopan nəfəsində Vətən eşqi, yurd sevgisi, torpaq həsrəti, oba nisgili, millətimin ağrı-acıları daha çox duyulur. Milli-mənəvi dəyərləri, adət-ənənələri miras saxlayan, illərin yadigarını yaşadan, ata-babalarımızın əmanətini gələcək nəsillərə çatdırmaqla daxili dünyamızı zənginləşdirirsən. Hər mizrabında ürək döyüntüləri, dərin hisslər var. O hisslər ki hər toxunuşunda ruhumuz qidalanır... Tar milli musiqi alətlərinin ən qədimi, segahın əsiri, kamançanın sirdaşı, bir də duyğuları ən yanıqlı şəkildə dilə gətirəndir. Musiqi alətlərinin şahı hesab edilən tarın adı ilk dəfə XI əsrdə yaşamış Baba Tahir və Qətran Təbrizinin şeirlərində çəkilib.***

# Havalansın tarın səsi...



İlk yaradılan tar beş simdən ibarət olub. Musiqi nəzəriyyəçilərinin sözlərinə görə, onun səsi zəif, texniki imkanları məhdud imiş. XIX əsrin ikinci yarısında Azərbaycanın görkəmli tarzəni Sadıqcan tarı təkmilləşdirərək onu virtuoz musiqi alətləri səviyyəsinə yüksəldib. Nəticədə, ümumi konstruksiya dəyişib və simlərin sayı 11-ə çatıb.

Ayrı-ayrı vaxtlarda Qurban Pirimov, Hacı Məmmədov, Əhsən Dadaşov, Mirzə Mansur Mansurov, Əhməd Bakıxanov, Bəhram Mansurov, Kamil Əhmədov kimi dəyərli sənətkarlar tarın təkmilləşdirilməsində və gələcək nəsillərə ötürülməsində misilsiz xidmətlər göstəriblər. Milli-mənəvi dəyərimiz kimi qədim musiqi alətinə olan dərin sevgi muxtar respublikada da ona marağın artmasında, gənclərin uğurlu tar ifaçısı kimi yetişməsində əhəmiyyətli rol oynayıb. Onlardan biri – Sərxan Abdullayev gənc olmasına baxmayaraq, qəlblərə yol tapan, yaddaşlara həkk olunan ifaçılardandır. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tar ixtisası üzrə müəllimi, Naxçıvan Dövlət Filarmoniyasında Xalq Çalğı Alətləri Orkestrinin tar ifaçısı, eyni zamanda bu ilin may ayında Prezident mükafatçısı olan Sərxan Abdullayevi redaksiyamıza dəvət edib onunla geniş söhbət etmək imkanı qazandıq.

*– Sərxan Abdullayev kimdir və Tar ixtisasına yiyələnmək üçün hansı mərhələlərdən keçib...*

– 1987-ci ildə Naxçıvan şəhərinin Qaraçuq kəndində doğulub, kənd tam orta məktəbində orta təhsil almışam. Musiqiyə olan marağım ailədən gəlir. Bizim evdən musiqi sədaları heç əskik olmazdı. Tarın səsi ilə yatıb, onun səsi ilə oyanırdıq. Atam, qardaşım tarda ifa edər, uşaqlıqdan onları maraq və zövqlə dinləyərdim. Hələ balaca ikən məhəllə uşaqlarına evimizdə solo konsert də söz vermişdim. Bir gün atamın yoxluğundan ürəklənib, ayağımın altına stul qoyub xalçadan asdığı tarı ehmalca götürdüm, gücüm çatmasa da, mənə nə qədər doğma olduğunu hiss etdim. Yapışmağı bacarmasam da, iki əlimlə möhkəmcə dınqıldatmağa başladım. Elə bu zaman tarın fərş səsini eşidən qardaşım əsəbi şəkildə içəri daxil olub onu əlimdən aldı. Möhkəm acıqlandı. Tarın əlimdən alınması mənə pis təsir etmişdi. Musiqiyə olan həvəsimi görən valideynlərim məni musiqi məktəbinə qoymaq qərarına gəldilər. Mən tar sinfinə getmək istəsəm də, atam razı olmadı. Ailədə artıq iki nəfər tar ifaçısı vardı. Evdə məsləhətləşib nağara ixtisasında təhsil almağıma qərar verdilər. Azyaşlı olduğum üçün məni musiqi məktəbinə, hələlik qəbul etmədilər. Həvəsimə görə atam məni Qaraçuq Kənd Uşaq Musiqi Məktəbində nağara müəllimi işləyən Füzuli Zeynalovun yanına apardı. Uşaqlar hər gün bağçaya tələsəndə, mən də müəllimimin yanına tələsirdim. Amma bu sahədə olan həvəssizliyim açıq-aşkar görünürdü. Bir il müəllim yanında, dörd il yaxın isə musiqi məktəbində nağaranın sirlərini öyrənsəm də, özümü bu musiqi alətində yaxşı ifaçı kimi görə bilmədim. Gözüm tarda qalmışdı. Hər tar ifası eşidəndə həsrətli, maraq dolu baxışlarım evdəkiləri narahat etməyə başladı. Bu səbəbdən valideynlərim nağara dərsimi yarımçıq saxlayıb məni 9 yaşımda Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbinə Tar ixtisası üzrə təhsil almağa apardılar. Həmin gün necə sevinmişdim, indiyə qədər yadımdadır. Ardınca 2002-ci ildə Naxçıvan Musiqi Kollecinə qəbul olub, 2006-cı ildə oranı bitirdim. 2008-2012-ci illərdə isə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində təhsil aldım. Düşünürəm ki, sənətə göməyim Allah tərəfindən yazılmış bir yazıdır.

*– İlk ixtisas müəlliminiz və ifa etdiyiniz tarın tarixçəsi maraqlıdır...*

– İxtisas müəllimim Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev tara olan marağımı görüb mənimlə xüsusi məşğul oldu. Təbii ki, ilk müəllimdən çox şey asılıdır. Onunla dərsdən sonra da məşğələlərə qalırdım. Hədsiz həvəsim müəllimin çox xoşuna gəlirdi, həmişə deyərdi: – Bu uşağın yaxşı potensialı var. Gələcəkdə uğurlu tarzən kimi yetişəcəyinə əminəm.

İfa etdiyim tarın tarixçəsinə gəldikdə isə deyə bilərəm ki, muxtar respublikanın tanınmış tar ifaçısı Oktay Məmmədlinin tarıdır. O tar mənə o qədər əziz, o qədər doğma idi ki, 2001-ci ildə, 12 yaşımda həmin tarla səhnədə ifamı görən tarzənin üzündəki xoş təbəssüm məni çox sevindirmişdi. Konsertdən sonra alnımdan öpüb məni təbrik etdi və dedi: – Bu tar sənə halal olsun, ay oğul. Açığı sən uşaq olduğun üçün onun səndə olmasına bir az tərəddüd edirdim. Əmanətimi əsl tarzənə vəsiyyət etmək istəyirdim. Sənin ifan məndə bir xoşbəxtlik yaratdı. Sən gələcəyin tanınmış tar ifaçısı olacaqsan. Zaman gələcək, mənim bu sözlərimi xatırlayacaqsan. Bax onda sən böyük səhnələrdə elə bu tarla öz məharətini göstərəcəksən. Onun bu sözləri hər konsert öncəsi mənə ruh yüksəkliyi verir.

*– İştirakçısı olduğunuz konsertlərin təəssüratları da bizim üçün maraqlıdır...*

– İlk solo konsertim 3-cü sinifdə oxuyarkən təşkil olundu, yüksək qiymətləndirildi. Bir il sonra Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovun sinif konserti keçirildi. Həmin konsertdə irihəcmli əsərlər ifa etməyim tara marağına səbəb oldu. 2004-cü ildə isə Bakı şəhərində təşkil edilmiş IX Respublika müsabiqəsində diploma layiq görüldüm. Bundan başqa, muxtar respublikamızda təşkil edilmiş bütün mənəvi tədbirlərdə, tarixi günlərdə, bayramlarda, konsert proqramlarında hər zaman iştirak edirəm. Ümumilikdə, 7 solo konsertim olub. Əsasən, Azərbaycanın tanınmış bəstəkarlarının ifasına, xalq mahnılarına, unudulmaqda olan əsərlərə müraciət edirəm. Pandemiya ilə əlaqədar konsert proqramlarımız onlayn təşkil edilir. 24 aprel tarixdə "Biz birlikdə güclüyük!" layihəsinin rəhbəri kimi bir neçə ifaçı ilə birgə konsert proqramı təşkil etdik və çox yaxşı qarşılandı. Həmçinin Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllimi kimi 26 aprel tarixdə onlayn konsert proqramı ilə çıxış etdim.

*– Tar qədrini tarzən bilər. Tarı tanıdan isə onu ifa edənin yaradıcılığındakı repertuar zənginliyidir. Bəs Sərxanın ifasında hansı əsərlər üstünlük təşkil edir?*

– Bu sənətə gələndə məsuliyyətimi dərk edirdim. Balaca əllərimdə Azərbaycanın milli mədəniyyətinin nadir incilərindən sayılan qədim musiqi alətinin hökmünü, mənəviyyatını, qüdrətini daşıdığımın fərqində idim. Çünki Azərbaycan muğamları tar kimi ecazkar musiqi aləti sayəsində sənət qələbəsi qazanıb, əbədi zirvə fəth edib. Tar yaradıcılığının zirvəsi məhz muğamlardır. Elə buna görə də onları dərindən mənimsəməyə çalışıram. İfa etdiyim əsərlər də daha çox xalq mahnıları və elə muğamlarımızdır. Əsas da Qarabağ şikəstəsini vurğulamaq istəyirəm. Tarda ifamı dinləmək istəyənlərin "Havalansın tarın səsi, Qarabağın şikəstəsi" deməkləri kifayətdir ki, mizrabım bu ecazkar xalq musiqisini ifa etsin.

Çalışıram ki, yaddan çıxan ifalara üstünlük verim, onları yaşadım. Bildiyimiz kimi, mənfur ermənilər hər zaman bizim milli musiqimizə və musiqi alətlərimizə göz dikib öz adlarına çıxıblar. Neçə-neçə xalq mahnılarımız, musiqi alətlərimiz bu qəbildəndir. Az öncə də vurğuladığım kimi, muğamlarımızı tarsız təsəvvür etmək olmaz. Çünki tar muğamlarımızın şah damarı hesab olunur. Bu da onlara tutarlı cavabdır ki, tar Azərbaycanın milli musiqi alətidir. Bir vaxtlar sovet ideologiyasının qadağa qoyduğu tar 2012-ci ildə "Simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti" UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edildi, bununla da Azərbaycan mədəniyyətinin əsas hissəsi kimi dünya ölkələri tərəfindən qəbul olundu.

*– Bu gün mədəniyyət sahəsində çalışanlardan biri kimi siz də dövlət qayğısı ilə əhatə olunanlar sırasındasınız... Yaradılan şərait yaradıcılıq uğurlarınıza necə təsir edir?*

– Ölkəmizin hər yerində olduğu kimi, doğma diyarımızda da bütün sahələrə göstərilən diqqət və qayğı mədəniyyəti də əhatə edib. Hər il mədəniyyət işçilərinə təltiflər, mükafatlar, fəxri adlar təqdim olunması da bu qayğının bariz nümunəsidir. Bir sənətkarın dövlət qayğısından ruh yüksəkliyi hiss edərək xalqa xidmət etməsi üçün bundan gözəl dəyər ola bilməz. Mən də bu ilin may ayında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Prezident mükafatına layiq görüldüm. Həmçinin Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin yeniyetmə və gənclər arasında təşkil etdiyi "Bir neçə dəqiqədə mədəniyyət" adlı videoçarx müsabiqəsində II yerlə mükafatlandırıldım. Sevindirici haldır ki, bu gün muxtar respublikada sənətə və sənətkara yüksək qiymət verilir, yaradıcı gənclər istedadları üzrə istiqamətləndirilir. Biz də yaradılan şəraitdən lazımınca bəhrələnib milli mədəniyyətimizi, musiqimizi yaşatmağa və təbliğ etməyə çalışacağıq.

***– Müsahibə üçün sağ olun!***

**Türkan HÜSEYNLİ**

---

*Ad insan həyatında mühüm əhəmiyyət kəsb edən amillərdəndir. Buna görə də uşaq böyüyəndə öz adı haqqında düşünməyə başlayır, valideynlərinin nə üçün bu adı seçdikləri onda maraq doğurur və adının mənasını öyrənməyə, axtarmağa çalışır, bəzən adından utanır. Ad yaxşı olarsa, təbii ki, uşaq da bu adın təsiri altında böyüyəcək, ona layiq olmağa çalışacaq.*

# Adlar xalqın milli-mənəvi dəyərlərini özündə əks etdirir

Yeni doğulmuş uşaqlara ad seçimi ilə bağlı qanunvericiliyin öz tələbləri vardır. BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasında uşağın doğulduqdan dərhal sonra ad almaq hüququna malik olduğu göstərilir. Azərbaycan Respublikası Mülki Məcəlləsində isə göstərilir ki, hər bir fiziki şəxsin addan, ata adından və soyaddan ibarət adı almaq hüququ vardır. Fiziki şəxs hüquq və vəzifələri öz adı ilə əldə edir və həyata keçirir. Qanunla nəzərdə tutulmuş hallarda və qaydada fiziki şəxs təxəllüsdən (uydurma addan) istifadə edə bilər. Qeyd edək ki, fiziki şəxsin qanunla müəyyənləşdirilmiş qaydada öz adını dəyişdirmək ixtiyarı vardır və adını dəyişdirməsi onun əvvəlki adı ilə əldə etdiyi hüquq və vəzifələrə xitam vermir və ya bunları dəyişdirmir.

Ad insanı geniş insan kütləsi arasında, o cümlədən mülki hüquq münasibətlərində fərdiləşdirən bir vasitədir. Tarixən insanlara anadan olduqları vaxtdan müəyyən ad verilir və həmin şəxs bu ad altında yaşayıb fəaliyyət göstərir. Adsız fəaliyyət göstərən şəxs olur, lakin adsız insan olmur. Belə ki, müəllif öz əsərini adsız (anonim) yaya bilər, lakin bu, o demək deyildir ki, onun müəyyən adı yoxdur.

Mülki qanunvericiliyə görə, ad məfhumu şəxsin adı ilə yanaşı, onun soyadını və atasının adını da əhatə edir. Şəxsin adı bu üç göstərici ilə ifadə olunur. Hər bir fiziki şəxs mülki hüquq münasibətlərinə girməklə öz adından müəyyən müqavilə bağlayır, əmlakını öz adından satır, bağışlayır, vəsiyyət edir və sair.

Uşağın ad daşımaq hüququ Ailə Məcəlləsində də öz əksini tapıb. Məcəllədə göstərilir ki, uşağa ad valideynlərin razılığı ilə verilir. Ad seçərkən mənasına diqqət edilməlidir. Çünki cəmiyyətdə yaxşı, mənalı adlarla yanaşı, mənasız adları olan, adları ilə müsbət və mənfi təsəvvür yaradan, narahatlıq hissi keçirənlər də var. İnsanın gün ərzində dəfələrlə adı ilə çağırıldığını nəzərə alsaq, bunun əhəmiyyətini anlamaq çətin olmaz. Ola bilər ki, ad deyiliş baxımından yaxşı olsun, amma bir məna kəsb etməsin. Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli Qərarı ilə təsdiq edilmiş "Adın, soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda göstərilir ki, yeni doğulmuş uşağa onun mənafeyinə xələl gətirə biləcək, habelə şəxsin cinsinə uyğun gəlməyən və ya gülüşdoğuran adların qoyulmasına yol verilmir. Uşağa ad seçərkən onun gələcəyini mütləq nəzərə almaq lazımdır. Bəzən də elə adlar verilir ki, bu da cəmiyyət arasında birmənalı qarşılanmır. Yəni ad həmin şəxsin xarakterinə uyğun gəlmir. Bu səbəblərə görə də insanlar adlarını dəyişməyə məcbur olurlar. Ailə qanunvericiliyinə əsasən vətəndaşların öz adını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir. Valideynlər ailədə vətənpərvər, milli dəyərlərə bağlı övladlar yetişdirmək istəyirsə, ad seçiminə diqqətlə yanaşmalıdırlar.

Ad seçimində çətinlik çəkən valideynlər "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti", eləcə də "Antroponimlər lüğəti"nə müraciət edə bilərlər. Bu çətinlikləri asanlaşdırmaq və aradan qaldırmaq məqsədilə vətəndaşlar Ədliyyə Nazirliyinin internet səhifəsinin "Dövlət xidmətləri" bölməsindən "Azərbaycan adları barədə məlumat" e-xidmət vasitəsilə Azərbaycan adlarının mənşəyi, onların izahlı şərhi, əhali arasında yayılma səviyyəsi barədə məlumatlar əldə edə bilərlər. Hər bir valideyn elə ad seçməlidir ki, həmin ad gələcəkdə uşağın cəmiyyətdə formalaşmasına mane olmasın. Çünki insanlar adla bir-birinə müraciət edirlər. Buna görə də hər bir şəxsin adı insanlar arasında ünsiyyət, münasibət yaratmağa xidmət edir. Adın seçilməsində kimlərin iştirak etməsinə baxmayaraq, əsas məsuliyyət ata və ana üzərinə düşür. Beləliklə, adseçmə məsuliyyətli bir seçimdir. Bəzi valideynlər bu məsuliyyətə bir o qədər əhəmiyyət vermirlər. Bunun mənfi nəticəsi uşaq böyüyəndən sonra ortaya çıxır. Qeyd edək ki, adların verilməsi ictimai hadisə hesab edilir, çünki hər bir ad xalqın milli-mənəvi dəyərini özündə əks etdirir.

Son illərdə cəmiyyətdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, milli-mənəvi dəyərlərə bağlı mühüm tədbirlərin həyata keçirilməsi bu sahədə müsbət nəticələrin əldə olunmasına imkan yaradır. Uyğun olmayan adlarla bağlı valideyn müraciətlərinə rast gəlinsə də, aparılan maarifləndirici söhbətlər bu kimi halların azalmasına, uşaqlara yaxşı, mənalı adların qoyulmasına gətirib çıxarır.

**İradə QULİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

---

## *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 16, mənzil 17-də yaşamış Əliyeva Şərqiyyə Məmməd qızının adına olan 6572 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayon Tivi kəndində yaşamış Ələkbərov Şəmil Cümşüd oğlunun adına olan 59$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 611